M.Ə.ŞIXIZADƏ
e-mail: metanetshikhi@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

:10.62021/0026-0028.2024.2.140

AQATA KRİSTİNİN ƏSƏRLƏRİNDƏ BƏDİİ İFADƏ VƏ TƏSVİR VASİTƏLƏRİ

Xülasə. *Bu məqalədə Aqata Kristinin əsərlərindəki bədii ifadə və təsvir vasitələri, o cümlədən metafora, metonimiya, frazeoloji birləşmələr və s. araşdırılır. Burada həmçinin yazıçının əsərlərindən stilistik fiqurların tərcüməsi variantları təqdim edilmişdir. Bu məqsədlə məqalədə müəllifin əsərlərinə müraciət edilir və konkret nümunələr əsasında nəzəri fikirlər əyaniləşdirilir.*

Açar sözləri*: bədii, metafor, metonimiya, frazeoloji birləşmə, tərcümə*

Aqata Kristinin əsərlərində biz danışıq dilindən götürülmüş və ya müəllifin öz təxəyyülünün məhsulu olan bədii ifadə və təsvir vasitələrinin ustalıqla istifadə edildiyini görə bilərik. Məsələn:

"Now then, there are lots of things I want to know "said Mrs. Oliver. Poirot hastened to pour oil on troubled waters" (A. Christie Third Girl) (İndi isə öyrənmək istədiyim çox şeylər var, "miss Oliver dedi.....Poirot isə sulara narahatlıqla neft tökməyə tələsirdi"). Bu nümunədə "to pour oil on troubled waters" frazeoloji birləşməsinin dilimizdə "oda yağ (neft) tökmək" ekvivalenti işlənir.

"She beat about the bush a little bus at last it all came out …… The letter with a German stamp …….. the one Charles had torn up [6, s. 180].

"The Four Suspects" – bu parçada işlənmiş beat about the bush metaforasının mənası narahat olmaq deməkdir. Burada all came out birləşməsi – hər şey aydın oldu, üzə çıxdı kimi tərcümə edilir. Bu parçanı aşağıdakı kimi tərcümə edə bilərik: O, bir az narahat oldu "lakin nəhayət hər şey aydınlaşdı. Üzərində alman markası olan məktub Carlizin cırıb tulladığı məktub idi."

"A black cloud has come between is we are constrained" [6, s.180].

Bu nümundə A.Kristi metaforik epitet yaratmışdır. Cümlənin mənası, "aramızdan qara buludlar keçib, biz çarəsiz qalmışıq" deməkdir.

Azərbaycan dilində də bu frazeoloji birləşmə geniş işlənir [2]. İki dostun arasındakı yaxşı münasibət pozularsa, bu zaman onların arasından qara bulud keçib deyilir; hətta "qara pişik keçib" ifadəsi də işlənir.

Aqata Kristinin "Strange jest" (Qəribə jest) hekayəsində bir neçə nümunəyə diqqət yetirsək: "Served him right" said Edward. Ona əcəb oldu – Edvard dedi [6, s. 186]. Müəllif burada to serve smb. right – bir kəsə əcəb olmaq birləşməsini istifadə etmişdir.

"You see, he said we`d counted on it a bit …. and Charmian herself hasn`t got a bean" [6, s. 150].

Bu kiçik parçanın mənası belədir: "Bilirsiniz, o dedi, biz bir qədər buna arxayın idik … və Çarnianın özünün heç bir çöpü də yoxdur", deməkdir. Burada işlənmiş "to count on smth" Frazeoloji birləşməsi bir şeyə arxayın olmaq, ümid etmək kimi tərcümə edilir. Count sözünün lüğəvi mənası saymaq, hesablamaq, güman etmək deməkdir.

"Hasn`t got a bean" frazeoloji birləşməsinin lüğəvi mənası "bir lobyasıda yoxdur" deməkdir. Dilimizdə bu frazeoloji birləşmə "bir çöpü də yoxdur" kimi işlənir.

"He looked at us both. He said you will be all right, my pretty pair of doves" o bizim hər ikimizə baxdı .....o dedi : [6, s. 151]. Mənim gözəl göyərçinlərim, hər şey yaxşı olacaq. Bu kiçik parçada müəllif "my pretty doves" metaforu yaratmışdır. "My pretty doves" "mənim gözəl göyərçinlərim" əzizləmə mənasında işlənən metafordur. Z.A.Kristinin "The Adventure of the Cheap Flat", "Ucuz mənzildə macəra" hekayəsində kiçik bir parçaya diqqət yetirək:

"I was well aware that in the struggle for house – room the baser side of human nature frequently triumphed over the higher and that the will – known rule of dog eat dog always applied" [6, s. 23]. Bu parçanın tərcüməsi: "Mən çox yaxşı bilirdim ki, bir evdə otaq əldə etmək üçün insan təbiətinin əsas rəzil tərəfi daha yüksəkdə olanla mübarizədə qalib gəlməkdir və onlar buna görə həmişə it kimi bir-birini yeyirlər adlanan məşhur qaydanı tətbiq edirlər".

Burada müəllif insanların bir məqsəd üçün bir-biri ilə apardığı mübarizəni itlərin bir-birilə qapışmasına bənzətmişdir və itlərə xas olan xüsusiyyəti insanlara şamil edərək maraqlı metafor yaratmışdır.

Müəllifin "Word was passed to the Customs authorities and every soul that left Ship was gone over with a toothcomb!" [6, s. 46] cümləsinin lüğəvi mənası belədir: "Vergilərin rəhbərliyinə bu barədə xəbər gəlib. Gəmini tərk edən hər bir kəs diş çubuğunun üzərindən keçib" deməkdir.

Burada müəllif "toothcomb" (dişçubuğu) sözünü metaforu kimi istifadə etmişdir. Diş çubuğu çox kiçik əşya olduğu üçün insanların gəmidən onun üzərindən keçərək qaçmaları ağlasığmazdır. Burada müəllif gəmini tərk edənlərin izinin qalmadığını, onların yoxa çıxdığını göstərmək istəmiş "to go over the toothcomb" ifadəsini məcazi mənada, frazeoloji birləşmə kimi istifadə etmişdir.

To go over toothcomb" (yoxa çıxmaq" A.Kristinin "Where there`s a will" (Vəsiyyətnamə hardadır?) hekayəsindən götürülmüş nümunəyə diqqət yetirsək, "I wonder who on earth he could be, the face was so – early Victorian, if you know wath I mean" [6, s. 249].

Verilmiş bu cümlənin mənası: "Aman Allah, bu, görəsən kim idi, üzü erkən Viktoriya dövründən qalmışdı, nəyi nəzərdə tutduğunu yəqin ki, bilirsən" deməkdir. Bu nümunədə müəllif "early Victorian" metaforunu yaradaraq mənanın daha emosional və təsirli alınmasına çalışmışdır. Bu metaforu "Victoriya dövründən qalmış qoca, yaşlı" kimi tərcümə edə bilərik.

Tərcümə olunmuş variantda bu hissə, "Mən də pəncərədə bu adamın sifətini görmüşdüm, boş şeydir, qarabasmadır" kimi tərcümə edilmişdir [6, s. 219].

Gördüyümüz kimi, tərcüməçi metaforun tərcümə variantında istifadə etməmişdir, bu amil orijinalın təhrif olunmasına və mənanın səthi çatdırılmasına səbəb olur. Fikrimizcə, tərcüməçinin əsas vəzifəsi tərcümə zamanı mümkün olan qədər mənanı orjinala yaxın, itkilərə çox az yol verərək çatdırmaqdan ibarətdir. Hər bir dildə istənilən ifadənin ekvivalentini tapmaq asan məsələ deyildir, amma bütün hallarda tərcüməçi buna cəhd etməlidir [1].

Bu hekayədə "Some victorian clothing belonging to his late uncle he replace in the comphor – scented chest in the attic" [6, s. 255] cümləsindən də müəllifin "victorian" metaforunu geyimə aid istifadə etdiyini görürük.

Hekayənin sonunda "Somebody had been playing with him – playing with him like a cat whit a mouse" cümləsində müəllif çox uğurlu bənzətmə yaratmağa müvəffəq olmuşdur [6, s. 261]. Tərcüməçi bu cümləni frazeoloji birləşmə vasitəsilə tərcümə etmişdir.

"Elə bil kimsə onu barmağına dolamışdı, ələ salmışdı" [6, s. 626]. Cümlənin lüğəvi mənası aşağıdakı kimidir: Kimsə onunla oyun oynamışdır – pişiyin siçanla oynadığı kimi.

Gördündüyü kimi, A.Kristi bu hissədə Çarlizin başına gələn oyunu pişiyin siçanla oynamasına bənzədir. Müəllif öz əsərlərində bənzətmə üsulundan geniş istifadə etmişdir. "The Adventure of the Egyptian Tomb" hekayəsində "like a flash the doctor ran to our tent" [6, s. 234] cümləsində müəllif bənzətmə yaradaraq həkimin qaçmasını işıq sürətinə, alova bənzətmişdir. Bu cümləni Azərbaycan dilinə belə tərcümə etmək olar: "Həkim işıq sürəti ilə bizim çadıra qaçdı".

"They`ll drift farther and farther apart, those two – with suspicion a ghost between them – a ghost that can`t be laid" [6, s. 181] (A.Kristi The four suspects).

"Dörd şübhəli" hekayəsindən götürülmüş nümunəyə diqqət yetirək: "Onlar bir-birindən daha çox uzaqlaşacaqlar, aralarında dayanan qarabasma kimin şübhə ilə − o ruh ki, onu məğlub etmək olmur."

Burada müəllif şübhəni qarabasmaya bənzətmişdir.

Metonimiya bədii ədəbiyyatda geniş istifadə edilən bədii ifadə vasitələrindən biridir. Metonimiyadan istifadə etməklə müəlliflər sözü nəzərdə tutduqları mənada istifadə edirlər, lakin bu zaman kontekstual məna ilə sözün lüğəti, həqiqi mənası arasında müəyyən əlaqə olur [2].

A.Kristinin "The Adventure of the cheap flat" (Ucuz mənzildə məcara) hekayəsində "There is a taxi waiting just around the corner" [6, s. 33] cümləsində "taxi" metonimiya kimi işlənmişdir.

Bu cümlə dilimizə "Orada küncdə səni taksi gözləyir" kimi tərcümə edilir.

Burada müəllif "taksi gözləyir" deyəndə sürücünü nəzərdə tutur. "Taksi" cansız əşyadır, bildiyimiz kimi, kimisə gözləyə bilməz.

A.Kristinin "Where there`s a will" (Vəsiyyətnamə hardadır?) hekayəsində "The radio, which had been playing an orchestral selection, died away with the same suddenness as before" [6, s. 246] cümləsində müəllif "radio" sözünü metonimiya kimi işlətmişdir. Bu cümlə Azərbaycan dilində "Orkestr seçimi ifa edən radio əvvəllər olduğu kimi eynilə qəfildən susdu" kimi tərcümə olunması daha məqsədəuyğundur.

Bildiyimiz kimi, radio özü musiqi ifa etmir, müəllif radioda səslənən orkestr musiqisini nəzərdə tutmuşdur. Hekayənin tərcümə variantında tərcüməçi metonimiyadan istifadə etməyib: "Radioda orkestr çalırdı. Birinci dəfə olduğu kimi bu dəfə də musiqi qəfildən kəsildi" [6, s. 617]. "A well – known soprano was singing Annie Laurie and the middle of Annie Laurie a change thing happened" [6, s. 245].

Tərcümə variantında bu hissəni tərcüməçi aşağıdakı kimi verib: "O axşam qədim, ürəyəyatımlı mahnılar səslənirdi, müğənni Enni Lori nəğməsini ifa edirdi və Enni Lori nəğməsinin yarısında qəribə əhvalat baş verdi".

Göründüyü kimi, tərcüməçi müəllifin istifadə etdiyi üslubdan istifadə etməmişdir. A.Kristi burada inversiya üsulundan və metonimiyadan istifadə etmişdir. Cümlənin birinci hissəsində mübtədanı sonda işlətmişdir. İngilis dilində bildiyimiz kimi mübtəda cümlənin əvvəlində işlənir. Adi qaydada cümlə "Annie Laurie was singing a well – known soprano" kimi olmalıdır. Lakin müəllif inversiya vasitəsilə həm də metonimiya yaratmışdır, müğənninin soprano səsə malik olduğuna bəlkə də diqqət yönəltmək istəmişdir. Cümlədə "soprano was singing" – "soprano" oxuyurdu metonimiyadır. Bildiyimiz kimi, soprano (zil səs) özü oxumur, kimsə zil səslə, soprano səslə oxuyur.

"The Kidnapped prime minister" hekayəsindən götürülmüş nümunəyə diqqət yetirsək: "One higher than the Prefet: One whose word was once law in Belguim – and shall be again. That England has sworn!" [6, s. 90].

"O, baş polis Kommusarından daha yüksəkdədir. Bu, o kəsdir ki, bir zamanlar sözü Belçikada qanun idi – və yenidən belə olacaq. İngiltərə buna and içir!"

Göründüyü kimi, müəllif bu hissədə maraqlı və emosional təsirə malik metonimiya yaratmışdır. Əlbəttə ki, London şəhərdir və and içmir. Bura da müəllif Londonun sakinlərini nəzərdə tutmuşdur.

İşin elmi nəticəsi: Dünya şöhrətli A.Kristinin yaradıcılığı daima diqqət mərkəzindədir və onun əsərləri dünyanın bir çox dillərinə, o cümlədən Azərbaycan dilinə tərcümə edilmişdir. Hesab edirik ki, onun yaradıcılığına aid hər bir əsərin tərcüməsinin linqvistik və üslubi xüsusiyyətlərinin tədqiqi ümumilikdə tərcümə işi üçün mühüm əhəmiyyətə malikdir.

İşin elmi yeniliyi: Məqalədə A.Kristinin əsərlərinin Azərbaycan dilinə tərcüməsində üslubi xüsusiyyətləri – metafor, metonimiya hadisələrinin verilməsi tədqiq edilmişdir.

İşin tətbiqi əhəmiyyəti: Nəzərə almaq lazımdır ki, tərcümə təbii dillərin, o cümlədən Azərbaycan dilinin leksik qatının zənginləşməsinə ciddi təsir imkanlarına malikdir. Bu məqalədən xarici dili tədris edən universitetlərin magistratura pilləsində ingilis dilinin qrammatikası və üslubiyyatı fənlərinin tədrisində istifadə edilə bilər.

Ədəbiyyat

1. Bayramov, Q.H. Tərcümə sənəti /Q.H.Bayramov, − Bakı: Oka Ofset, − 2008, − 110-124 s.
2. Bayramov, H.A. Azərbaycan dili frazeologiyasının əsasları / H.A.Bayramov, − Bakı: Maarif, − 1978, − 176 s.
3. Dəmirçizadə, Ə.M. Azərbaycan dilinin üslubiyyatı / Ə.M.Dəmirçizadə, − Bakı: Azərtədris nəşr, − 1962, − 272 s.
4. Арнольд И.В. Стилистика современного английского языка: Стилистика декодирования [Учеб. пособие для пед. ин-тов по спец. N 2103 "Иностр. яз."] / И.В.Арнольд. −2-е изд., перераб. − Ленинград: Просвещение. Ленингр. отд-ние, − 1981. − 295 с.
5. Hajiyeva, A.K. English stylistics: Lectures and Exercises/ A.Hajiyeva. –Azerbaijan University of Languages. − Baku: Elm və Təhsil, − 2015. − 172 p.
6. Christie, A. Selected detective stories / Agatha Christie. − Москва: Прогресс, − 1976. – 336 p.

M.A.Shikhizada

Artistic Lexical Expressive Means in Agate Kristie's Works

Summary

The article is devoted to the Artistic lexical expressive means in Agate Kristie's works. The article deals with the variants of translation stylistic devices as well. The examples have been presented from Agate Kristie's works. For this, the article provides links to the author's work and visualizes theoretical ideas based on concrete examples.

***Key words**: artistic, metaphor, metonymy, phraseological units, translation*

М.А.Шыхызаде

Средства художественной выразительности и описания в творчестве Агаты Кристи

Резюме

В данной статье исследуются средства художественного выражения и описания в творчестве Агаты Кристи, в том числе метафора, метонимия, фразеологическое сочетания и так далее. Здесь также представлены варианты перевода стилистических фигур из произведений писателя. Для этого в статье приводятся ссылки на работы автора и визуализируются теоретические идеи на основе конкретных примеров.

***Ключевые слова:** художественный, метафора, метонимия, фразеологическое сочетание, перевод*

Rəyçi: filol.f.d. C.M.Babayev

Redaksiyaya daxil olub: 15.05.2024